KPMG

# Legislative Update Newsletter

November 21, 2017



Overview of recent changes in the Azerbaijani legislation that could materially impact your business.

## Tax and Legal Services

### 1. Additions were made to state registration of legal entities.

**Document:** *Law of the Republic of Azerbaijan on Amendments to the Law of the Republic of Azerbaijan "On State Registration and State Registry of Legal Entities"*

**Date of signing:** 2 October 2017

**Commentary:** According to the amendments, a limited liability company with foreign investment and its electronic state registration concepts were introduced to the Law. For state electronic registration of a limited liability company with foreign investments a foreigner or a stateless person shall fill in an online application on the web information source of the relevant executive authority and approve it with an enhanced electronic signature.

Law is effective as of 21 October 2017.

### 2. Amendments to the "Resolution on the Ministry of Taxes of the Republic of Azerbaijan"

**Document:** Decree of the President of the Republic of Azerbaijan on amendments to the "Resolution of the Ministry of Taxes" approved by the Decree of the President of the Republic of Azerbaijan, No. 454, dated 29 March 2001

**Date of signing:** 5 October 2017

**Commentary:** For the purpose of implementing the Law of the Republic of Azerbaijan "On amendments to the Tax Code of the Republic of Azerbaijan" dated 16 December 2016,

the following functions and rights of the Ministry of Taxes have been added to the "Resolution on the Ministry of Taxes of the Republic of Azerbaijan":

*Functions*

- To take a decision on advance tax ruling upon the application of the taxpayers;
- To conduct a registration of taxpayers making sales under the condition of VAT refund during the shopping festivals, provide them with respective software and technical equipment on the basis of application of taxpayers;
- To issue the "Receipt of payment of a fixed simplified tax" to the individuals engaged in specific business activities.

*Rights*

- To require the documents and information, arising from the requirements of international treaties, to which the Republic of Azerbaijan is a party, in electronic carriers and (or) hard-copy form from the persons;
- To conduct tax monitoring in the financial institutions and to receive electronic and (or) paper-based documents and records related to tax and financial transactions of those financial institutions;
- To ensure the imposing of taxes, interests, financial sanctions and administrative penalties, if tax evasion scheme is identified during on-site tax audit.

The Decree has been effective as of 6 October 2017.

## 3. Rules "On refund of overpaid taxes, interests and financial sanctions to the taxpayer" have been amended

**Document:** Resolution of the Cabinet of Ministers on Amendments to rules "On refund of overpaid taxes, interests and financial sanctions to the taxpayer"

**Date of signing:** 11 October 2017

**Commentary:** For the purpose of implementing the Law of the Republic of Azerbaijan "On amendments to the Tax Code of the Republic of Azerbaijan" dated 16 December 2016, amendments on refund of overpaid taxes, interests and financial sanctions made to the Tax Code have been added to the Rules "On refund of overpaid taxes, interests and financial sanctions to the taxpayer".

Resolution has been effective as of 12 October 2017.

## 4. The Law on Advocates and Advocacy was amended

**Document:** Law of the Republic of Azerbaijan on Amendments to the Law of the Republic of Azerbaijan "On Advocates and Advocacy"

**Date of signing:** 31 October 2017

**Commentary:** Based on the amendments made to the Law, representation on administrative disputes, along with the representation of civilian disputes in the Supreme Court, is an exclusive authority of advocates.

The Law is effective as of 12 November 2017.

## 5. Amendments were made to the Civil Procedural Code

**Document:** Law of the Republic of Azerbaijan on Amendments to the Civil Procedural Code of the Republic of Azerbaijan

**Date of signing:** 31 October 2017

**Commentary:** Further to Law, the following amendments were made to the Code:

- A representative of a physical person may be his close relative or advocate;
- The legal entity shall be represented in the court by authorized representatives or by employees duly authorized by the law, other legal acts or by the founding documents of a legal entity.
- Decisions of the Court of Appeal on civil disputes with the claims of less than AZN 2000 as well economic disputes with the claims less than AZN 10 000 regarding property – related allegations cannot be appealed to the Supreme court.

**Note:** Previously to amendments any eligible individual capable to act on behalf of a physical person or legal entity could be a representative in court, as well as there were no restrictions in appealing to the Supreme Court.

Law shall be effective as of 1 January 2018.

## 6. Amendments were made to the Administrative Procedural Code

**Document:** Law of the Republic of Azerbaijan on Amending the Code on Administrative Procedural of the Republic of Azerbaijan

**Date of signing:** 31 October 2017

**Commentary:** Further to the Law, following amendments were made to the Code:

- Procedural activities in courts on behalf of State, municipalities or legal entities shall be performed by representatives authorized by law, legislative acts or by their charter (regulations) or by employees with special authorities assigned to them.
- A representative of a physical person may be his close relative or an advocate

**Note:** Previously to amendments any eligible individual capable to act on behalf of a physical person or legal entity could be a representative in court.

Law shall be effective as of 1 January 2018.

## 7. The list of raw materials and materials exempt from import VAT has been approved

**Document:** Decree of the President of the Republic of Azerbaijan on approval of the “The list of raw materials and materials exempt from input VAT”

**Date of signing:** 2 November 2017

**Commentary:** According to the Decree, the list of raw materials and materials exempt from input VAT has been approved. Aluminium ores, aluminium oxide, direct reduction products of iron ore, waste of ferrous metals and other raw materials and materials have been included to the list.

## 8. Revised and amended Agreement on the Joint Development and Production Sharing for “Azeri-Chirag-Guneshli” fields has been approved by the Parliament of the Republic of Azerbaijan

**Document:** Law of the Republic of Azerbaijan on adoption and approval, permission of implementation of the Revised and amended Agreement “On the Joint Development and Production Sharing for the Azeri and Chirag fields and the deep water portion of the Gunashli field in the Azerbaijan sector of the Caspian Sea” among the State Oil Company of the Azerbaijan Republic and Azerbaijan (ACG) Limited, BP Exploration (Caspian Sea) Limited, Chevron Khazar Ltd., Exxon Azerbaijan Limited, Inpex Southwest Caspian Sea Ltd., Itochu Oil Exploration (Azerbaijan) Inc., ONGC Videsh Limited, Statoil Absheron A.S., Turkiye Petrolleri A.O. (hereinafter, referred as “New ACG PSA ”).

**Date of signing:** 2 November 2017

**Commentary:** According to the law of the Parliament of the Republic of Azerbaijan, “New ACG PSA” signed on 14 September 2017 has been adopted and approved.

## 9. The Law on termination of the audits in the field of entrepreneurship has been amended

**Document:** The Law of the Republic of Azerbaijan on amendments to the Law “On termination of the audits in the field of entrepreneurship”

**Date of signing:** 3 November 2017

**Commentary:** According to the amendments, the audits conducted in the field of entrepreneurship in the territory of the Republic of Azerbaijan have been terminated until 1 January 2021. During that period, only the following type of audit can be conducted:

- tax audits;
- audits related to the compliance with the rules on quality, safety of medicines and related to the control on the safety of food products;

- audits related to the situations which creates a serious threat to human life and health, to the security and economic interests of the state.

### 10. "Azerbaijan Industrial Corporation" was created

**Document:** Decree of the President of the Republic of Azerbaijan on the establishment of the "Azerbaijan Industrial Corporation" Open Joint-Stock Company

**Date of signing:** 6 November 2017

**Commentary:** In accordance with this Decree, “Azerbaijan Industrial Corporation Open Joint-Stock Company” (hereinafter referred to as the “AIC” OJSC) is created in order to increase the effectiveness of state property management, form a transparent and controlling system based on corporate governance principles, create favorable business relationships between state-owned enterprises, and increase production potential through elements of value chains.

Charter capital and other assets envisaged for activity of "AIC" OJSC mainly consist of assests obtained in return of toxic assets of International Bank of Azerbaijan OJSC acquired by Agrarcredit CJSC, property that is and shall be given (to the balance of) to “AIC” OJSC.

The Decree is effective as of 7 November 2017.

## Our Key Contacts



**Murat Karakas**

Managing Partner

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru



**Mushfig Aliyev**

Partner,
Head of Tax and
Legal Department

T +994 12 404 8910
E maliyev@kpmg.az



**Farid Isayev**

Director,
Head of Legal
Services

T +994 12 404 8910
E fisayev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe

from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to fisayev@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2017 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2017 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

KPMG

# Qanunvericiliyə dair mühüm dəyişikliklər

Noyabr 21, 2017

English version ♦ Bütün dəyişikliklər ♦ Xidmətlərimiz ♦ Media ♦ Əlaqə

Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. Hüquqi şəxslərin dövlət qeydiyyatına əlavələr edildi.

**Sənəd:** *“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”* Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 2 oktyabr 2017-ci il

**Şərh:** Edilmiş dəyişikliklərə əsasən, Qanuna xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyət və onun elektron dövlət qeydiyyatı anlayışları salınmışdır. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün əcnəbi və ya vətəndaşlığı olmayan şəxs müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə formasını dolduraraq gücləndirilmiş elektron imza ilə təsdiq edəcək.

Qanun 21 oktyabr 2017-ci il tarixindən etibarən qüvvəyə minib.

## 2. “Azərbaycan Respublikası Vergilər Nazirliyi haqqında Əsasnamə”-yə dəyişikliklər

**Sənəd:** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”-də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**İmzalandığı tarix:** 5 oktyabr 2017-ci il

**Şərh:** "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli Qanununun tətbiqini həyata keçirmək məqsədi ilə, Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”-ə Vergilər Nazirliyinin aşağıdakılar funksiya və hüquqları əlavə edilmişdir:

*Funksiyalar*

- vergi ödəyicilərinin müraciətinə əsasən, vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi haqqında qərar qəbul etmək;
- ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış edən vergi ödəyicilərinin qeydiyyatını aparmaq, müraciət olduqda, onları müvafiq proqram təminatı və texniki avadanlıqla təchiz etmək;
- xüsusi fəaliyyət növləri (dayəlik, təmir, rəqqaslıq və s) ilə məşğul olan sadələşmiş vergi ödəyiciləri olan fiziki şəxslərə “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz” vermək.

*Hüquqlar*

- şəxslərdən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilənin tələblərindən irəli gələn sənədləri və məlumatları elektron və (və ya) kağız daşıyıcıda tələb etmək;
- maliyyə institutlarında vergi monitorinqini aparmaq və bununla bağlı həmin institutlardan vergi və maliyyə əməliyyatları barədə sənədləri və məlumatları elektron və (və ya) kağız daşıyıcılarda almaq;

- səyyar vergi yoxlamaları zamanı vergidən yayınma sxemi aşkar etdikdə, əlavə vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin hesablanmasını təmin etmək.

Fərman 6 oktyabr 2017-ci il tarixindən etibarən qüvvəyə minib.

## 3. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları"-a dəyişikliklər edilmişdir

**Sənəd:** "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları"-a dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**İmzalandığı tarix:** 11 oktyabr 2017-ci il

**Şərh:** "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli Qanununun tətbiqini həyata keçirmək məqsədi ilə, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması haqqında Vergi Məcəlləsinə edilmiş dəyişikliklər "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları"-na əlavə edilmişdir.

Qərar 12 oktyabr 2017-ci il tarixindən etibarən qüvvəyə minir.

## 4. Vəkillər və vəkillik fəaliyyəti haqqında qanuna dəyişiklik edildi

**Sənəd:** “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 31 oktyabr 2017- ci il

**Şərh:** Qanuna edilmiş dəyişikliklərə görə, Ali Məhkəmədə mülki işlər üzrə təmsil edilməsi ilə yanaşı, inzibati mübahisələrə dair işlər üzrə təmsilçilik də vəkillik fəaliyyətinin müstəsna dairəsidir.

Bu Qanun 12 noyabr 2017 – ci il tarixindən etibarən qüvvəyə minir.

## 5. Mülki Prosessual Məcəlləsində dəyişikliklər edildi

**Sənəd:** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 31 oktyabr 2017 – ci il

**Şərh:** Bu Qanuna əsasən Məcəlləyə aşağıdakı dəyişikliklər edildi:

- Fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkili ola bilər;

- Hüquqi şəxsi məhkəmədə qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri və ya vəkillər təmsil edir.
- Apelyassiya məhkəməsində baxılan mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, iqtisadi mübahisələrə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kasassiya şikayəti verilə bilməz.

**Qeyd:** Düzəlişdən əvvəl, fiziki şəxs və ya hüquqi şəxs adından hərəkət edə bilən hər hansı bir şəxs məhkəmədə təmsilçi qismində çıxış edə bilərdi, həmçinin Ali Məhkəməyə müraciət etməkdə heç bir məhdudiyyət yox idi.

Qanun 1 yanvar 2018 – ci il tarixindən etibarən qüvvəyə minir.

## 6. İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edildi

**Sənəd:** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 31 oktyabr 2017 – ci il

**Şərh:** Hazırkı Qanuna əsasən Məcəlləyə aşağıdakı dəyişikliklər edildi:

- Dövlətin, bələdiyyələrin və ya hüquqi şəxslərin adından prosessual hərəkətləri onların qanunlarla, digər hüquqi aktlarla və ya onların nizamnaməsi (əsasnaməsi) ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri və ya onlar tərəfindən xüsusi səlahiyyət verilmiş, əsas iş yeri həmin dövlət və bələdiyyə orqanları və ya hüquqi şəxslər olan işçiləri həyata keçirirlər;
- Fiziki şəxslər nümayəndələri onların yaxın qohumları və ya vəkilləri ola bilərlər.

**Qeyd:** Düzəlişdən əvvəl, fiziki şəxs və ya hüquqi şəxs adından hərəkət edə bilən hər hansı bir şəxs məhkəmədə təmsilçi qismində çıxış edə bilərdi.

Qanun 1 yanvar 2018 – ci il tarixindən etibarən qüvvəyə minir.

## 7. İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı təsdiq edilmişdir

**Sənəd:** "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"-nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**İmzalandığı tarix:** 2 noyabr 2017-ci il

**Şərh:** Fərmana əsasən, idxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı təsdiq edilmişdir. Siyahıya alüminium filizləri, alüminium oksidi, dəmir filizinin birbaşa reduksiya məhsulları, qara metalların tullantıları və digər xammal və materiallar daxil edilmişdir.

## 8. “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilmişdir

**Sənəd:** “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında Sazişin ( Yeni AÇG HPBS) qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 2 noyabr 2017-ci il

**Şərh:** Azərbaycan Respublikası Milli Məclisinin qərarına əsasən, 2017-ci ilin sentyabrın 14-də imzalanmış “Yeni AÇG HPBS” qəbul və təsdiq edilmişdir.

## 9. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında Qanuna dəyişiklik edilmişdir

**Sənəd:** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**İmzalandığı tarix:** 3 noyabr 2017-ci il

**Şərh:** Dəyişiklikliyə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılır. Həmin müddət ərzində yalnız aşağıda göstərilən hallar üzrə yoxlamalar aparıla bilər:

- vergi yoxlamaları;
- dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar;
- insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamalar.

## 10. “Azərbaycan Sənaye Korporasiyası” yaradıldı

**Sənəd:** “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**İmzalandığı tarix:** 6 noyabr 2017-ci il

**Şərh:** Bu Fərmana əsasən, dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail

olmaq məqsədilə Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – "ASK" ASC) yaradılsın.

ASK" ASC-nin nizamnamə kapitalı və fəaliyyəti üçün digər aktivlər, əsasən, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş, onun mülkiyyətində (balansında) olan və "ASK" ASC-nin mülkiyyətinə (balansına) veriləcək əmlak hesabına formalaşır.

Fərman 11 noyabr 2017 – ci il tarixindən etibarən qüvvəyə minir.

## Bizimlə əlaqə




**Murat Karakas**

İdarəedici Partnyor

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru



**Müşfiq Əliyev**

Partnyor,
Vergi və Hüquq
Departamentinin rəhbəri

T +994 12 404 8910
E maliyev@kpmg.az



**Fərid İsayev**

Direktor,
Hüquq Xidmətlərinin
rəhbəri

T +994 12 404 8910
E fisayev@kpmg.az


www.kpmg.az

Privacy | Legal


You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to fisayev@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2017 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2017 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.